# BİOİQTİSADİYYAT DAVAMLI İNKİŞAFIN ƏSASI KİMİ

**Afət Məmmədova**

*Bakı Dövlət Universiteti*

Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi kimi prioritet istiqamətlər reallaşdırılmalıdır. Ətraf mühitin gələcək nəsillər üçün mühafizəsi, ətraf mühitin keyfiyyətinin idarə edilməsi istiqamətində mütərəqqi metodların istifadəsi əsas şərtlərdəndir. "Yaşıl" iqtisadiyyat, "yaşıl" texnologiyalar, "bioiqtisadiyyat" anlayışlarının yaranması və işlənilmə sərhədlərinin genişləndirilməsi həyata keçirilir. "Yaşıl" iqtisadiyyat davamlı inkişafın əsas elementi olub, ekosistem, insanların rifahının yüksəldilməsi, əhalinin sosial ədalətlilik, ətraf mühitə təhlükəli təsirlərin azaldılması ilə sıx əlaqədardır. "Yaşıl" iqtisadiyyat və "yaşıl" texnologiya bu günə və gələcəyə investisiya edir. Xətti iqtisadiyyatdan tsiklik iqtisadiyyata keçmə yeni anlayışların yaranmasına səbəb olur. "Bioiqtisadiyyat" yeni termin kimi yaranır, sosial iqtisadi sistem kimi çıxış edir. Bioiqtisadiyyat bərpa olunan biokütlənin əsas qida məhsuluna və ya digər bioməhsullara, həmçinin bioenerjiyə çevrilməsidir və demək olar ki, bütün sənaye və iqtisadi sektorları əhatə edir. Bioiqtisadiyyat mövzusu son zamanlar müxtəlif kontekstlərdə işlənilir. Belə ki, davamlı inkişaf kontekstində, ətraf mühitə antropogen təsirlərin azaldılmasında, ənənəvi iqtisadiyyat modelindən "yaşıl" iqtisadiyyata keçiddə daha çox rast gəlinir. Bioiqtisadiyyatın əsas elementi biotexnologiyaların istifadəsi hesab edilir. 2010-cu ildə dünyada konkret olaraq heç bir bioiqtisadi strateji hədəf yox idi, hazırda isə 50-dən çox ölkədə bioiqtisadiyyatın formalaşması ilə bağlı dövlət konsepsiyaları mövcuddur. Azərbaycanda Avropa Komissiyasının Horizon 2020 Tədqiqat və İnnovasiya Proqramı çərçivəsində beynəlxalq layihələrdə iştirak edən alimlərimiz Yaşıl Razılaşma Çağırışları üzrə məlumatlandırma vebinarlarına cəlb edilirlər.

Bioiqtisadiyyat "iqtisadiyyat-cəmiyyət-biosfer" davamlı inkişaf sisteminin prinsiplərinə əsaslanaraq köhnə modelin problemlərinin aradan qaldırılmasını həll edir. İqtisadi artım mənəvi-etik aspektli dünyagörüşünə əsaslanan inkişaf prinsipləri ilə müəyyənləşir. Burada inkişafı tənzimləyən prinsiplər vacibdir. Bioiqtisadiyyatda, fikrimizcə, hər cür təbii-coğrafi şəraitdə həcmi məhdud olan demoqrafik tələbatdan istifadə etmək olar ki, burada orqanizmin təbii fiziologiyasına, regionda əhalinin sayına və tarixən formalaşmış həyat tərzinə tabe olaraq, insanların varlığı, məmnunluğu və şəxsi inkişafı təmin edilsin.

Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun ətraf mühitin qiymətləndirilməsi, mühafizəsi və idarə edilməsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqın rifahının yaxşılaşdırılması naminə səmərəli istifadə, əhalinin ekoloji təfəkkürünün yüksəldilməsi məsələləri də bu qəbildən olan prioritet istiqamətlərdəndir. Ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin optimallaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin dayanıqlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir. 2012-2020-ci illəri əhatə edən dövrü real sosial-iqtisadi-ekoloji vəziyyəti tam dərk etmək, maariflənmək, "dəbli", "parıltılı" həyat tərzindən azad olmaq və şüurlu olaraq "yaşıl" həyatın mahiyyətini hamılıqla anlamaq dövrü hesab etmək olar. Deyə bilərik ki, 2020-ci ilə kimi olan dövr beynəlxalq səviyyədə bu anlamın təfəkkürlərdə formalaşmasına həsr olunmuşdur. Sonrakı 2030-cu ilə qədər olan dövrdə bu istiqamət sistemli planlaşdırma sayəsində tam reallaşacaqdır. Azərbaycan yaxın gələcəkdə öz milli təhsili ilə bu prioritet istiqaməti inkişaf etdirəcəkdir.